# Festival musiqisevərlərin zövqünü zənginləşdirəcək

***Dünyanın fərqli məkanlarında səslənən musiqilər, özünəməxsus və valehedici ifada Qəbələdə canlanaraq, bu il də hər bir musiqisevərin zövqünü zənginləşdirəcək.***



Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə iyulun 31-dən avqustun 5-dək keçiriləcək XI Qəbələ Beynəlxalq Musiqi Festivalı dünya musiqiçilərini bir araya gətirəcək.

Festivala Azərbaycan, Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən dəvət olunan dünya şöhrətli dirijorlar Fəxrəddin Kərimov, Dmitri Yablonski, Alvise Kasellati, eləcə də Oksana Yablonskaya, Janna Qandelman, Eduard Vulfson, Anna Koşkina, Janna Miniotas, Boris Andrianov, Sim Helen, İrina Starodub, Mariya Buynosova, Umid İsrailov, Modestas Sedlevicius, Ningvu Du, Doğu Kaptaner, Fırat Semərçioğlu kimi musiqiçilər və digərləri çıxış edəcəklər.

Festival çərçivəsində keçirilən konsertlərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestri, "Kiyev virtuozları" simfonik orkestri, "Clarte" klarnet kvarteti, Trio Mirakulum (Türkiyə) məharətlərini səhnədə nümayiş etdirəcək.

Xalq artistləri Murad Adıgözəlzadə, Yeganə Axundova, Ülviyyə Hacıbəyova, Əməkdar artistlər Nərgiz Kərimova, Rəna Rəhimova, beynəlxalq müsabiqələr laureatları Cavad Tağızadə, Ceyla Seyidova, Toğrul Hüseynli, Nicat Salmanov, Taleh Yahyayev, Mahir Tağızadə, Fəqan Həsənli, Natavan Həsənova, Nərmin Nəcəfli və digər sənətkarlar maraqlı ifaları ilə tamaşaçıların zövqünü oxşayacaq.

Festivalda, həmçinin dünya şöhrətli pianoçu Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş "Oksana Yablonskaya və məktəbi" adlı konsert keçiriləcək.

Hər il olduğu kimi, bu il də Festival çərçivəsində "Muğam axşamı" təşkil olunacaq. Muğamsevərlər "Naz-nazı" muğam qrupunun çıxışından zövq alacaq.

Möhtəşəm musiqi bayramı olan XI Qəbələ Beynəlxalq Musiqi Festivalı əhali arasında gözəl musiqi zövqünün formalaşdırılmasına, dünyanın və Azərbaycanın musiqi ənənələrinin ölkəmizdə tanınmasına ənənəvi olaraq, böyük töhfə verəcəkdir.

**"Qəbələ"**

# "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda görüş

***Fövqəladə Hallar Nazirliyinin (FHN) Şimal-qərb Regional Mərkəzinin təşkilatçılığı və Şimal-qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsi əməkdaşlarının iştirakı ilə iyulun 16-da Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzində "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda görüş keçirilib.***



Görüşdə "Fövqəladə halların qarşısının alınmasında təbliğatın rolu", "İdarə və təşkilatlarda fövqəladə hallara hazırlığın təşkili", "Meşələrdə yanğın təhlükəsizliyi qaydaları", "112 - zəng xidmətindən düzgün istifadə qaydaları" və sair mövzularda məruzələr dinlənilib. Həmçinin ilkin yanğınsöndürmə avadanlığından istifadə qaydası əyani şəkildə izah edilib.

Sonda mövzu ətrafında suallar cavablandırılıb.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Milli Mətbuat Günü qeyd olunub

***"Qəbələ" qəzetinin kollektivi Milli Mətbuat və Jurnalistika Gününü qeyd edib.***

***Qəzetin redaksiyasında keçirilən tədbirdə redaktor Varis Yaqubov Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Milli Mətbuat və Jurnalistika Günü münasibətilə kollektivə ünvanladığı təbrik məktubunu oxuyub.***

Redaktor dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə ilk nömrəsini nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş milli mətbuatın bütün dövrlərdə həqiqət carçısı olduğunu, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynadığını bildirib.

Qeyd olunub ki, Sovet hakimiyyəti illərində mətbuatımız kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də öz milli varlığını qoruyub saxlaya bilib, xalqımız müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə KİV-lərin sayında önəmli ölçüdə irəliləyiş baş verib.



Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli Fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan «Əkinçi» qəzetinin birinci nömrəsinin çapdan çıxdığı tarix - 22 iyulun Milli Mətbuat və Jurnalistika Günü elan edildiyini diqqətə çatdıran qəzet redaktoru ölkəmizdə mətbuatın inkişafına geniş imkanlar yaradıldığını və bunun nəticəsi olaraq bu gün çoxlu sayda qəzet və jurnalların çap edildiyini, elektron informasiya vasitələrinin fəaliyyət göstərdiyini söyləyib.

Ümummilli lider Heydər Əliyevin 16 avqust 1998-ci il tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanına əsasən ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edildiyini deyən natiq, Prezident İlham Əliyevin 2009-cu ilin mart ayında imzaladığı Sərəncamla fikir, söz və məlumat azadlığı şəraitinin yaxşılaşdırılması, o cümlədən kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin göstərilməsi ilə bağlı Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradıldığını qeyd edib.

O, çıxışında qəzetin əməkdaşlarının fədakarlıqlarını yüksək dəyərləndirib, Milli Mətbuat və Jurnalistika Günü münasibətilə onlara ən xoş arzularını bildirib.

Qəzetin məsul katibi Qüdrət Səmədov çıxışında 1933-cü ildən müxtəlif adlarla çıxan "Qəbələ" qəzetinin rayonda həyata keçirilən quruculuq işlərinin, qazanılan nailiyyətlərin və gerçəkləşdirilən layihələrin cəmiyyətə çatdırılmasında böyük rolu olduğunu deyib.

Yarandığı gündən "Qəbələ"nin zəngin və mənalı bir inkişaf yolu keçdiyini, rayonumuzun ictimai-siyasi həyatında müstəsna rol oynadığını bildirən natiq, qəzetin insanların mədəni həyatına layiqli töhfələr verdiyini söyləyib.

Tədbirdə iştirak edən "ASAN xidmət" könüllüləri görülən işlərin cəmiyyətə operativ çatdırılmasında kütləvi informasiya vasitələrinin, o cümlədən "Qəbələ" qəzetinin rolundan, müasir həyatımızda mətbuatın əhəmiyyətindən danışıblar.

**Rais RƏŞİDOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ"**

# Növbəti ekoskaut düşərgəsi

İDEA İctimai Birliyi, Azərbaycan Skautlar Assosiasiyasının təşkilatçılığı və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Şahdağ Milli Parkında "Təbiətin keşiyində" adlı növbəti ekoskaut düşərgəsi təşkil edilib.

Düşərgələrin təşkil edilməsinin məqsədi gəncləri Azərbaycanın zəngin təbiəti, nəsli kəsilmək üzrə olan flora və fauna barədə məlumatlandırmaq, təbiəti qorumaq, onlara təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadə etməyi, həmçinin gənclərə vəhşi təbiətdə düzgün davranışı, ətraf mühitə ziyan vermədən istirahəti təşviq etməkdir.

Gənclərə Şahdağ Milli Parkının yaradılmasında əsas məqsəd, əraziyə xas olan landşaft növləri, Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilən flora və fauna haqqında, həmçinin Fransa və Belçika zooparklarından Azərbaycana reintroduksiya edilmiş Qafqaz zubrları haqqında məlumat verilib.

Düşərgənin sonunda iştirakçılara xatirə hədiyyələri və sertifikatlar təqdim edilib.

**"Qəbələ"**

# "Qarabağ əcdadlarımızın mirası" sənədli filminin nümayişi

***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Qəbələ rayonunda "Qarabağ Əcdadlarımızın mirası" sənədli filmi nümayiş etdirilib.***



Filmin nümayişindən əvvəl rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və Gənclər və İdman Nazirliyi yanında ictimai şuranın sədri Nurəddin Mehdiyev çıxış edərək filmin nümayiş etdirilməsində məqsədin gənclərin vətənpərvər ruhda böyüməsi, milli-mənəvi dəyərlərimizə sahib çıxmaları və Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasından ibarət olduğunu bildiriblər.

Tədbirdə 160-dək rayon ictimaiyyətinin nümayəndələri və fəal gənclər iştirak edib.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**